# Sadəlik, alilik və elmilik haqqında dost monoloqu

## Dəyərli alim Abel Məhərrəmovun mənalı ömür yolu, Azərbaycan elm və təhsilinin inkişafına verdiyi töhfələr zəngin xəzinədir





**Xalqımızın taleyində dərin iz qoymuş, yaraları heç zaman sağalmayan hadisələrdən biri də soydaşlarımızın Qərbi Azərbaycandan deportasiya edilməsidir. O hadisələrin acısını yaşayan insanların həyatından danışmaq belə çətindir. Ən çətini isə odur ki, sonralar hansı zirvədə olsan da, həyat o yaşananları unutdurmur sənə...**

...Qədim yurd yerimiz, Göyçə göllü, Arpa göllü, Göyçə, Ağbaba-Şörəyel, Zəngəzur, Dərələyəz ətirli Vətən torpağı. O torpaqların gülünə, çiçəyinə, lap elə boz tikanına, kol-kos basmış cığırlarına həsrət qalanların hayqırtıları indi də ürək sızladır. Ancaq indi xarabalığa çevrilən torpaqlara sarı baxan bir pəncərə də var. Qərbi Azərbaycan duyğulu insanlar, o torpaqlarda doğulan, həm də dünyanın minbir yerində yaşayan, Vətənə bağlı olan, bəsirət gözü hər zaman açıq qalanlar üçün başqa bir anlamı var bu pəncərənin. Bu pəncərə təkcə o torpaqlara uzaqdan boylanmaq üçün deyil, bir gün onu geniş açıb o yerlərin havasını ciyərlərimizə çəkmək, əsirlikdə qalan o torpaqlara qayıtmaq, onunla təkrar qol-boyun olmaq üçündür. Bir gün vaxtilə ulu yurd yerlərindən didərgin salınan, torpaq həsrətilə dünyalarını dəyişənlərin ruhunu, kökünün, kötüyünün o yerlərdə qalması səbəbindən xoşbəxt ola, gecələr rahat uyuya bilməyənlərin qəlbini sevindirmək üçün geniş açılacaq o pəncərə. O pəncərənin arxasında Vətən var, insanlarının taleyinə köç etmək yazılan bir Vətən...

Yetişdirdiyi sənətkarları, sərkərdələri, alimləri ilə hər zaman öyünən o torpaqlara yenidən qovuşmaq üçün ləyaqətlə yaşamaq, savaşmaq gərəkdir. Bu sırada olmaq özü də bir şərəfdir...

### Yaşamaq yanmaqdır

"Yaşamaq yanmaqdır, yanasan gərək". Sevimli şairimiz Bəxtiyar Vahabzadənin bu ölməz misrası həyatını xalqa, Vətənə, elmə, sənətə, ailəsinə, doğmalarına həsr edən və ömrünü hədər keçirməyənlərin heç də asan yol tutmadığını, əsl insan kimi yaşadığını çox gözəl ifadə edir. Şamın mənası onun yanmağında olduğu kimi, əsl insan ömrü yaşayanların da həyatının mənası onun yaratdıqlarında, verdiyi töhfələrindədir. Vətəndaş alim, böyük şəxsiyyət Abel Məhərrəmov da məhz belə bir ömür yaşamış alimlərdəndir.

Həyat göstərir ki, insan ömrü çox sürətlə, lap bir göz qırpımında ötüb keçir və hər kəs öz taleyini yaşayır. Taleyi dəyişmək insanın əlində olmasa da, yaşanan ömür payını mənalı etmək, zənginləşdirmək onun üzərinə düşür. Bu məqamda mütəfəkkir filosof Sokratın dediyi bir fikir yada düşür: "Gözləmə ki, qocalıq sənə müdriklik gətirəcək, gərək onu cavanlıqda qazanasan". Ömrü təlatümlər içərisində keçən, zaman-zaman bərkiyən, yaşadığı illərin ağır sınaqlarından çıxaraq hələ gənc ikən müdrikləşən, Azərbaycan elminin və təhsilinin korifeylərindən birinə çevrilən görkəmli şəxsiyyət Abel Məhərrəmovun həyat yolu yalnız elm və təhsillə bağlı deyil. Təkcə Azərbaycanda yox, onun hüdudlarından kənarda da yaxşı tanınan Abel müəllim heç vaxt elmi məclislərin seyrçisi, müşahidəçisi olmamış, təşəbbüskarlıq göstərmiş, dövrünün ziyalıları ilə bir sırada addımlamış, beynəlxalq səviyyəli alim kimi nüfuz qazanmışdır.

Həyat Qərbi Azərbaycandan deportasiya olunmuş minlərlə ailələr kimi, Məhərrəmovlar ailəsi ilə də acı bir oyun oynamış, onları da sonsuz okeanın tən ortasında yelkənsiz qayıq kimi sərt sınağa çəkmiş, o yan-bu yana atmışdı. Fəqət yolunu azmayıb sahilə sağ-salamat yetişən gəmi kimi Məhərrəmovlar da bu sınağa, çətinliyə sinə gərə bilmişdilər.

Ata-babaları və özü erməni şovinistləri tərəfindən dəfələrlə deportasiyalara, təzyiq və təqiblərə, mənəvi repressiyalara məruz qalan Abel müəllimin valideynləri Məmmədəli Məhərrəmov və Şəfiqə xanım Məhərrəmova (Avşarova) Qərbi Azərbaycanın tanınmış ziyalılarından idilər. 1948-1953-cü illərdə indiki Ermənistan ərazisindən sürgün olunan ailə məşəqqətlərlə, məhrumiyyətlərlə üzləşdi. Tale onları şəhərdən-şəhərə, kənddən-kəndə atdı, nəhayət, Ağbaba-Şörəyel mahalından çox-çox uzaqlarda, Ağdamın Əhmədağalı kəndində məskunlaşmalı oldular. Kiçik Abel də 1950-ci il yanvarın 5-də bu kənddə dünyaya göz açdı. Doğmalarının Vətən həsrəti, bitib-tükənməyən xatirələri onun balaca köksündə özünə yer etdi, vətənsizlik dərdi Damokl qılıncı kimi başının üstündən asılı qaldı. Günləri nə qədər xoş keçsə də, yurd həsrəti onları rahat buraxmır, Vətəndən ayrı yaşaya bilmirdilər. Beləcə, ailə yenidən doğma yurda, Güllübulağa qayıtdı, balaca Abel kənd orta məktəbində oxumağa başladı.

Qərbi Azərbaycanın ən böyük kəndlərindən olan Güllübulaq orta məktəbində o zaman 1200 şagird təhsil alırdı. Onların təlim-tərbiyəsi ilə 80 nəfərdən çox müəllim, o cümlədən 3 nəfər "Əməkdar müəllim" məşğul olurdu. Onu da qeyd edək ki, Abel müəllimin anası pedaqoji fəaliyyətinə görə Ermənistanın "Əməkdar müəllimi" (1973) fəxri adına layiq görülən ilk azərbaycanlı qadın oldu, atası Məmmədəli Məhərrəmov uzun illər bu məktəbə rəhbərlik etdi. Onun direktorluğu dövründə Güllübulaq kənd orta məktəbinin uğurları artdı. Təkcə 1966-cı ildə məktəbin 12 nəfər məzunu medala layiq görülmüşdü ki, onlardan biri də Abel Məhərrəmov idi. Bu isə təsadüfi deyildi, çünki ziyalı, müəllim ailəsində yetişən Abel hələ uşaqlıqdan məsuliyyəti və çalışqanlığı ilə digərlərindən seçilir, istedadı, savadı ilə müəllimlərinin diqqətini cəlb edirdi. Xüsusən dəqiq fənlərə - riyaziyyat, fizika və kimyaya maraq göstərir, bu fundamental elmlərin incəliklərinə dərindən yiyələnməyə çalışırdı. Son dərəcə çalışqan və yüksək intizama malik olan bu yeniyetmənin qəlbində getdikcə müəllimlik peşəsinə marağın ilk cücərtiləri baş qaldırırdı. Odur ki, peşə seçimində çətinlik çəkmədən orta məktəbi bitirən kimi arzularının qanadında ən nüfuzlu təhsil və elm məbədi olan indiki Bakı Dövlət Universitetinə üz tutdu. Onun gələcək uğurlarının əsası da elə bu təhsil ocağında qoyuldu.

### Qüvvət elmdədir

"Qüvvət elmdədir, başqa cür heç kəs, heç kəsə üstünlük eyləyə bilməz". Dahi Nizaminin bu misralarını tez-tez təkrarlayan Abel Məhərrəmov onun mənasını da çox gözəl bilirdi. Sevimli peyğəmbərimizin elm dalınca lap dünyanın ən son bucağına getməyin vacib olduğunu ifadə edən kəlamını da özünün həyat devizinə çevirmişdi.

Uşaqlığı, yeniyetməliyi İkinci Dünya müharibəsinin törətdiyi fəlakətlərin, yoxsulluğun, aclığın, dağıntıların insanlara yaşatdığı çətin vaxtlara düşsə də, qəlbində müəllimlik peşəsinə böyük sevgi yaşatmış və bu istək də onu arzularına doğru qanadlandırmışdı.

Deyirlər, təbiət öz duruluğundan, saflığından, paklıq və gözəlliyindən də pay verir insan mənəviyyatına. Dədə Qorqud qəhrəmanlarının at sürüb, qılınc oynatdığı yerlərdə böyüyən gənc Abel də o mahalın məziyyətlərindən ruhlanaraq böyüyür, mənən saflaşırdı. Uca dağlarının zirvələri qışda da, yayda da daim qarla örtülü olan, yamaclarını gül-çiçək bəzəyən Güllübulağı tərk edib təhsil, elm dalınca yola çıxanda onun 16 yaşı var idi.

1966-cı ildə Azərbaycan Dövlət Universitetinin kimya fakültəsinə daxil olan Abel Məhərrəmov 1971-ci ildə oranı əla qiymətlərlə başa vurub, 1973-cü ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetində üzvi kimya ixtisası üzrə əyani aspiranturada təhsilini davam etdirdi. 1976-cı ildə MDU-da akademik N.S.Zefirovun rəhbərliyi altında namizədlik (fəlsəfə doktoru) dissertasiyası müdafiə edib, elə həmin ildən də ADU-da (indiki Bakı Dövlət Universiteti) əmək fəaliyyətinə başladı, baş elmi işçi, baş müəllim, dosent, tədris hissəsinin müdiri, dekan müavini vəzifələrində çalışdı. 1991-ci ildə doktorluq dissertasiyası müdafiə edib, həmin il üzvi kimya kafedrasının professoru, 1993-1999-cu illərdə kimya fakültəsinin dekanı seçildi. 1999-cu ilin yanvarında ümummilli lider Heydər Əliyevin sərəncamı ilə Bakı Dövlət Universitetinin rektoru təyin olunaraq, 20 ilə yaxın bu qocaman təhsil ocağına rəhbərlik etdi. Rektor olduğu müddətdə elm və təhsilin inkişafı üçün bu təhsil ocağında köklü islahatlar apardı, BDU-nun dünya reytinq cədvəlində xeyli irəliləməsinə nail oldu. Həmin illərdə, həmçinin universitetdə iki yeni fakültə, onadək kafedra, Nano Araşdırmalar Mərkəzi də daxil olmaqla otuzadək yeni elmi-tədqiqat laboratoriyası, Gənc İstedadlar Liseyi, BDU-nun Qazax filialı yaradıldı, universitetin əsas, birinci və ikinci korpusları, Altıağac tədris-təcrübə bazası əsaslı təmir olundu. Qubada 4 mərtəbəli tədris-təcrübə və istirahət mərkəzi, əməkdaşlar üçün ümumilikdə 800 ailəlik 3 yaşayış kompleksi, 10 mərtəbəli üçüncü tədris korpusu, idman kompleksi, stadion, park, üzgüçülük hovuzu, nəşriyyat, iaşə kompleksi, poliklinika və digər tikililər istifadəyə verildi. BDU dünyanın bir çox nüfuzlu qurumlarına, o cümlədən Avrasiya, Qara dəniz hövzəsi, Avropa universitetləri, Xəzərətrafı Universitetlər Assosiasiyalarının həqiqi üzvü oldu.

Öz xalqının varlığını, elm və mədəniyyətini başqa xalqlar arasında təbliğ etmək Vətənə, xalqa bağlılığın bir nümunəsidir. Abel müəllimin bu sahədəki xidmətləri də böyükdür. Onun ən böyük xidmətlərindən biri də Rusiya və Azərbaycan universitetlərinin əlaqələrinin yaxınlaşdırılmasıdır. Məhz bu xidmətlərinə görə görkəmli azərbaycanlı alim həm də Rusiya Elmlər Akademiyasının həqiqi üzvüdür. Bu, Abel Məhərrəmovun alimliyinə, şəxsiyyətinə, eyni zamanda Azərbaycan elminə, təhsilinə verilən dəyərdir. Hazırda o, BDU-da üzvi kimya kafedrasının və "Zərif üzvi sintez" Elmi-Tədqiqat Laboratoriyasının müdiridir.

Acılı-şirinli, enişli-yoxuşlu, bəzən hamar, bəzən sərt döngəli, keşməkeşli, ehtiyacla dolu tələbə, sadə, cəfakeş müəllim, qayğılı aspirant, dəyərli alim ömrü yaşayan Abel Məhərrəmov həyatının çoxunu laboratoriyalarda keçirib, sanballı tədqiqatlarla Azərbaycan və dünya elminə töhfələr verib. Elmi axtarışlarının bəhrəsi olan iri miqyaslı işləri bu böyük ömür yolunun işıqlarına bənzəyir. Hər işıq zolağının altında bərq vuran monoqrafiya, kitab, proqram, dərslik, məqalələr, ixtiralar və s. onun alim ömrünün mənasını, dəyərini artırır. O, 1800-ə yaxın elmi məqalə və tezisin, 90 ixtira, 24 monoqrafiya, 60-dan çox dərslik və dərs vəsaitinin müəllifidir. Onun bilavasitə rəhbərliyi ilə 80-dən çox alim fəlsəfə doktoru (60-dan çox) və elmlər doktoru (20-dən çox) dissertasiya işlərini uğurla müdafiə etmişlər. Akademik Abel Məhərrəmovun "Web of Science Clarivate Analytics" (əvvəlki Thomson Reuters) agentliyinin siyahısına daxil olan jurnallarda 500-dən çox elmi məqaləsi çap olunub, "H" indeksi üzrə göstəricisi 34-dür, Scopus beynəlxalq sistemində indekslənən "New Materials, Compownds and Applications" jurnalının baş redaktorudur.

Azərbaycan Respublikasının Əməkdar elm xadimi (2000) olan akademik Abel Məhərrəmov Azərbaycan Milli Elmlər Akademiyasının (2007) və Rusiya Elmlər Akademiyasının (2016) həqiqi üzvü seçilmiş, "Şöhrət" ordeni (2009), 2-ci dərəcəli "Əmək ordeni" (2019), "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalı (2024) ilə təltif edilmişdir.

İqtisadi Əməkdaşlıq Təşkilatının "Qızıl medal"ına (2000), Rumıniyanın Komandor dərəcəli "Qızıl Ulduz" ordeninə (2006), "Elm və Texnologiya sahəsində ICESCO mükafatı"na (2012) və digər yüksək beynəlxalq mükafatlara layiq görülmüşdür. Prezident İlham Əliyevin sərəncamları ilə Azərbaycan Respublikasının Elm, Texnika, Memarlıq, Mədəniyyət və Ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının və Azərbaycan Milli Ensiklopediyasının redaksiya heyətinin üzvü təyin edilmişdir. Qara Dəniz Hövzəsi Ölkələri Universitetləri Assosiasiyasının prezidenti (2002-2004), Avrasiya Universitetlər Assosiasiyasının vitse-prezidenti (2015-2019) olmuşdur. Latviya Elmlər Akademiyasının nəzdində Beynəlxalq Elmi Şuranın üzvü, Gürcüstan Milli Elmlər Akademiyasının və Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvüdür.

Türkiyə, Rusiya, Rumıniya, Ukrayna, Çin, Albaniya və Qazaxıstanın bir sıra universitetlərinin fəxri doktoru, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin fəxri professorudur.

### Dost haqqında dost sözü

Abel Məhərrəmov gənclik illərindən təhsil aldığı universitetdə müxtəlif məsul vəzifələrdə çalışdı. Bu vəzifə pillələri onun ömür yolunun möhtəşəm səhifələridir, ancaq bütün bunların fonunda o, gözəl alimdir. Onun həyatını elmi fəaliyyətsiz təsəvvür etmək belə mümkün deyil. Qələmindən çıxan əsərlər yüksək elmi-nəzəri və təcrübi əhəmiyyətli tədqiqatlardır. Həm Cənubi Qafqazda, həm də MDB ölkələri arasında yüksək elmi göstəricilərə malik olan akademik Abel Məhərrəmovun yetişdirdiyi kadrlar, dərc etdirdiyi elmi məqalələr, irəli sürdüyü ideyalar həmin elmmetrik bazalarda, ilk olaraq Azərbaycanımızın şərəfidir. Bu baxımdan bir şəxsiyyət, ziyalı, vətəndaş kimi xalqımız onunla qürur duyur.

Abel müəllimlə bizim tanışlığımızın 60 ilə yaxın bir tarixi var. Bu tanışlıq 1966-cı ildə Azərbaycan Dövlət Universitetinin kimya fakültəsinə daxil olduğumuz gündən başlayır. Tələbə adını qazanmaq üçün mübarizə aparan məzunlardan ən yüksək nəticə göstərən Abel ilk illərdən tələbələr arasında xüsusi yer tuturdu. O, zəhmətkeşliyinə, məsuliyyətinə və sadəliyinə görə hamımızın hörmətini qazanmışdı. Həmin vaxtlarda yaranan dostluğumuz bu gün də davam edir.

Hər bir yaradıcı insanın şəxsiyyətini öyrənmək üçün adətən onun yaratdıqları ən mötəbər mənbə sayılır, ancaq təcrübə göstərir ki, belələrini daha yaxşı tanımaq üçün onun doğulduğu, yaşadığı mühit, dövr, ictimai fəaliyyəti, ailə və dostluq münasibətləri, xarakter və şakəri daha önəmlidir. Əlbəttə, müasirlərinin yazdıqları xatirələr, cəmiyyətdə müxtəlif mövqe tutan insanların münasibətləri o şəxsiyyətlər haqqında təsəvvürləri genişləndirir. Abel müəllim haqqında yazılan məqalələr, rəy və fikirlər onun alim, ictimai xadim, təşkilatçı, rəhbər, dəyərli insan kimi tam portretini yaradır. Bu portretə vurulan fərqli-fərqli cizgilər onu daha cəlbedici edir.

**Akademik Vaqif Abbasov:** *"O, həqiqi dostdur, təkəbbürlü deyil, heç kəsi incik salmır. Bu, çox önəmlidir. Həmişə cəmiyyətin qaymaqlarını axtarıb üzə çıxarır, ona həyan, arxa, dayaq olur".*

**AMEA-nın müxbir üzvü Misir Mərdanov:** *"Abel Məhərrəmov 20 ilədək Bakı Dövlət Universitetinə rəhbərlik edib. Onu da qeyd edim ki, bu təhsil ocağına heç bir rektora bu qədər uzun müddət rəhbərlik etmək nəsib olmayıb".*

**Akademik Adil Qəribov:** *"Abel Məhərrəmov elmi məqalələrinin sayına görə Azərbaycandakı akademiklər arasında birincidir. Ona böyük hörmət, sevgi var".*

**Akademik Rasim Əliquliyev:** *"Onun fəaliyyəti ulu öndər Heydər Əliyev və Prezident İlham Əliyev tərəfindən həmişə yüksək dəyərləndirilib".*

**Gürcüstan Elmlər Akademiyasının prezidenti Roin Metrevelinin dediklərindən:** *"Onunla tanışlığımız Qafqazın ali təhsil müəssisələri üçün çətin olan 90-cı illərdən başlayıb. O zaman mən Tbilisi Dövlət Universitetinin rektoru idim. O isə BDU-ya rəhbərlik edirdi. Biz beynəlxalq konfranslarda, tədbirlərdə görüşürdük. Bir-birimizlə yaxından tanış olub dostlaşdıq. Bu dostluq indiyədək davam edir. O, böyük dostdur".*

### İctimai-siyasi fəaliyyəti ilə öndə

Azərbaycanda kimya elminin inkişafında böyük xidmətləri olan Abel Məhərrəmov qəlbinin odunu, hərarətini, ömrünün qaynar və coşğun illərini millətinin gələcəyi olan gəncliyin tərbiyəsinə həsr edib. Onun neçə-neçə istedadlı gəncin, alimin yetişməsində, formalaşmasında, həyata vəsiqə almasında əvəzsiz xidmətləri var. Həyatının yarım əsrdən çoxunu peşəkar elmi fəaliyyətə həsr edən Abel Məhərrəmov ictimai-siyasi fəaliyyəti ilə də seçilir, rəhbərlik etdiyi üzvi kimya kafedrasının fəaliyyətini müasir dövrün tələblərinə uyğun qurur, ətrafına yığdığı gənclərə elmi rəhbərlik edir, öz elmi məktəbinin qorunması, inkişaf etdirilməsi üçün yorulmadan çalışır, elmi-nəzəri, elmi-pedaqoji fəaliyyətlə yanaşı, ictimai qurumların işində də yaxından iştirak edir.

2005-ci və 2010-cu illərdə Azərbaycan Respublikası Milli Məclisinin üzvü seçilən, on il Azərbaycan-Yaponiya Parlamentlərarası Əlaqələr üzrə İşçi Qrupuna rəhbərlik edən Abel Məhərrəmov iyirmi ilə yaxın bir müddətdə Yeni Azərbaycan Partiyası İdarə Heyətinin və Siyasi Şurasının üzvü olub.

Qərbi Azərbaycan İcması yarandıqdan sonra Abel müəllimin yüksək təşkilatçılıq qabiliyyətinin bir daha şahidi olduq. O, İcmanın Amasiya rayon təşkilatının rəhbəridir. Ötən müddətdə çox böyük işlər görüb. Təşkilati işlərin aparılması, soydaşlarımıza, xalqımıza məxsus dəyərlərin müəyyənləşdirilməsi, toplanması, qeydiyyata alınması, müxtəlif elmi konfransların keçirilməsi onun bu sahədəki xidmətlərinin yalnız bir qismidir. Prezident İlham Əliyevin Qərbi Azərbaycana Qayıdış konsepsiyasının uğurla həyata keçirilməsi istiqamətində geniş, əhatəli fəaliyyət göstərən Abel Məhərrəmov tarixi torpaqlarımızın geri qaytarılması uğrunda mübarizə aparanların ön sırasındadır.

Bütün bu xidmətlərinə görə Abel müəllim bu yaxınlarda Ulu Öndərin adını daşıyan medala layiq görülüb. İnanırıq ki, o, əzəli və əbədi torpaqlarımız uğrunda mübarizədə həmişə olduğu kimi, bu gün də öndə gedəcək. Gün gələcək ki, o kimsəsiz, qəribsəmiş yurd yerlərinin hələlik bir baxış bucağı olan pəncərəsi taybatay açılacaq, köç karvanları üzü Göyçəyə, İrəvana, Ağbaba-Şörəyelə, Pəmbəyə və digər mahallara sarı yola çıxacaq, çünki Abel müəllimin də uğrunda mübarizə apardığı Qərbi Azərbaycan bizim əbədi və əzəli yurdumuzdur.

**Dilqəm TAĞIYEV,**
**akademik,**
**AMEA-nın vitse-prezidenti.**